| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | LİT305. Dünya ədəbiyyatı–1 A qr. (Qədim Şərq ədəbiyyatı, Antik (yunan və Roma) ədəbiyyat). 3 kredit 6 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr | |
| | **Tədris semestri** | 2021/2022-ci tədris ilinin payız semestri | |
| | **Fənni tədris edən müəllim** | Qardaşxan Əzizxanlı | |
| | **E-mail:** | gardashkhan.asiskhanli@khazar.org; gardashxan.eziz@gmail.com. | |
| | **Telefon:** | Mob.: 0 55 73158 88; 050 724 36 42 | |
| | **Mühazirə otağı/Cədvəl** | | |
| | **Məsləhət saatı** | | |
| **Prerekvizitlər** | yoxdur | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1.Nağıyev C., Qədim Şərq ədəbiyyatı tarixi, Asiya n., B., 2009;<br>2.Qədim Şərq ədəbiyyatı (tərcüməçilər: İ. Vəliyev, N.Səfərov, E.Ağaoğlu).”AE”,B.,1999;<br>3.Qədim Şərq ədəbiyyatı müntəxabatı (tərcüməçilər: İ. Vəliyev, N.Səfərov, E.Ağaoğlu), “Şərq-Qərb”, B, 2007 (”AE”, B.,1999 nəşri əsasında təkrar çap edilib);<br>4.Tronski İ.M., Antik ədəbiyyat tarixi.“Elm və təhsil”, B., 2011 (Tərc.C.Nağıyev, E.Kərimli)<br>5.Antik ədəbiyyat antologiyası (I c., tərt. ed. prof. Əli Sultanlı) “Avrasiya press”, B., 2006;<br>6.Antik ədəbiyyat antologiyası (II c., tərt. ed. prof. Əli Sultanlı).“Avrasiya press”, B., 2006;<br>7.Roma ədəbiyyatı müntəxabatı (t. e. prof. Əli Sultanlı). Azərbaycan univers.nəşr.,B., 1959.<br><br>**Əlavə dərsliklər:**<br>**1**.Nağıyev C., Qədim Şərq ədəbiyyatı tarixi, B., 2004;<br>2.Nağıyev C., Qədim Şərq ədəbiyyatı, B.,2007<br>3.Novruzov T., Qədim Şərq ədəbiyyatı tarixi, B., 2005;<br>4. Novruzov T., Dünya ədəbiyyatı tarixi 1-ci h., (Qədim Şərq ədəbiyyatı), B., ADPU, 2011;<br>4. Sultanlı Ə., Antik ədəbiyyat tarixi, B., 1958;<br>5. Novruzov T., Qədim yunan və Roma ədəbiyyatı, B., 2005;<br>6.Novruzov T.,Qədim dünya ədəbiyyatı tarixi. B., ADPU 2003;<br>7.Novruzov T, Paşayeva N., Antik Yunanıstanda ədəbiyyat nəzəriyyəsi.”Təfəkkür” Universtetinin elmi əsərləri (1-ci kitab), B, 1996.<br>8.Hüseynov İ.,Əfəndiyeva N., Qədim Dünya mədəniyyəti, “Mars-print” NPM, B., 2009<br><br>**Mənbələr:**<br>1.Aristotel, Poetika, Azərb., dövlət nəşr., B, 1974, (Aristotel, Poetika, Şərq-Qərb, B., 2006);<br>2. Qolosovker Y.E., Mifin məntiqi. BSU “Kitab aləmi”, B., 2006;<br>3.Şəfizadə B., Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər). “Adiloğlu” nəşr., B., 2003;<br>4.Skirbek Q., Gilye N., Fəlsəfə tarixi, “Zəkioğlu” nəşriyyatı,B., 2007;<br>5.Əskər R., Qudatğu bilig, Elm, B.,2003;<br>6.“Elladanın qəhrəmanları”, “Öndər” nəşriyyatı, B., 2004.<br>7. Homer, İlliada. B,1979;<br>8. Homer, Odisseya. B,1977 (və başqaları). | | |
| **Kursun vebsaytı** | | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki məsələnin təhlili | - | |
| | Digər | - | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Davamiyyət | | 5 |
| | Fəallıq | | 5 |

| | | | |
|---|---|---|---|
| | Tapşırıqlar, testlər, quiz | 7 dekabr | 20 |
| | Final imtahanı | | 40 |
| | Digər | | - |
| | Yekun | | 100 |

| | |
|---|---|
| **Kursun təsviri** | Qədim Şərq ədəbiyyatı və Antik (qədim yunan və Roma) ədəbiyyat ("Dünya ədəbiyyatı–1") kursu filoloji fakültə tələbələrini ən ulu şifahi söz sənəti, dünya mədəniyyəti xəzinəsinə misilsiz töhfələr vermiş dahi söz ustalarının həyat və yaradıcılığı, onların yaratdıqları qiymətli və məşhur əsərlər, habelə ədəbi- estetik və fəlsəfi dünyagörüşləri, həmçinin özügedən ədəbiyyatın inkişaf mərhələləri, nəzəri-təcrübi istiqamətləri ilə yaxından tanış edəcəkdir. |
| **Kursun məqsədi** | "Dünya ədəbiyyatı–1" fənninin məqsədi qədim şərq, habelə qədim yunan və Roma mədəniyyətlərinin ümümbəşəri dəyərlərini və ədəbi- estetik nailiyyətlərini tələbələrə mənimsətməkdən ibarətdir. Qədim dünyanın maddi -mədəniyyət abidələri, aparıcı içtimai-siyasi və ədəbi-fəlsəfi simaları, onların həyat və yaradıcılığı və s. barəsində dolğun nəzəri-təcrübi məlumatlar bu kursun əsas vəzifələri sayıla bilər. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Bu fənnin mənimsənilməsi nəticəsində tələbələr:<br>1.Ümumdünya ədəbi prosesinin ən qədim dövrlərinə nüfuz edə biləcək,<br>2.Qədim şərq və antik dövr ədəbi cərəyanlarının inkişaf istiqamətlərinə hərtərəfli və sistemli şəkildə bələd olacaqlar,<br>3.Bədii-estetik zövqləri kamil şəkildə formalaşacaq. |
| **Qaydalar**<br><br>**(Tədris siyasəti və davranış, qiymətləndirmə meyarları)** | **Davamiyyət**<br>Onlayn dərslər məcburidir. Davamiyyət balı semestr boyunca qeydiyyat aparılaraq final imtahanından əvvəl yazılacaqdır. Tələbə 10 dəqiqədən artıq dərsə gecikərsə, qaib yazılacaq. Dərslərin 25%-də iştirak etməyən tələbə imtahana buraxılmayacaq.<br>**Fəallıq**<br>Fəallıq balı semestr boyunca izlənilərək final imtahanından əvvəl yazılacaqdır. Fəallığa görə bal tələbənin müzakirələrdə iştirakına, mətnlərin təhlilində göstərdiyi fəallığa, semestr boyu həftəlik dərs proqramına hazırlaşmasına, əlavə dərsliklərə və ədəbiyyata göstərdiyi marağa görə veriləcək.<br>**Tapşırıqlar, testlər, quiz (Prezentasiya/ Qrup müzakirəsi )**<br>Tələbələr tapşırıqları müəyyən edilmiş vaxtda "Assignment" bölməsinə yerləşdirməlidirlər. Tapşırıqlar vaxtından gec göndərildikdə tapşırığa ayrılmış baldan 20% çıxılacaqdır. Tələbələr tapşırıqları yerinə yetirərkən plagiarizmə yol verməməli, əldə etdikləri məlumatların mənbələrinə istinad etməlidirlər. Tapşırıqlarda 25% və daha çox plagiarizm halları (istinadlar istisnadır) aşkarlandıqda iş sıfırlanacaq. Tələbələrin bir-birindən köçürməsi aşkarlanarsa, iş ləğv olunacaq. Təqdimatlar dizayn və məzmun baxımından mükəmməl olmalıdır. Semestr ərzində müxtəlif mövzular üzrə ən azı bir prezentasiya təqdim edilməlidir. Fərdi təqdimatın/Qrup müzakirəsinin qiymətləndirilməsində mövzu ilə bağlı mövcud tədqiqatlarla tanışlıq və elmi araşdırmanın səviyyəsi, mövzunun əhatə olunma miqyası, şəkil və illüstrasiyalardan yerli-yerində istifadə edilməsi, təqdimatdakı planlılıq və ardıcıllıq kimi meyarlar nəzərə alınacaq. Semestrin bitməsinə iki qoşa saat dərs qalmış bütün tapşırıqlar təhvil verilməlidir.<br>**İmtahan haqqında**<br>1) Final imtahanında suallar aralıq imtahanından sonra keçilmiş materialların əsasında tərtib olunur.<br>2) İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır. 3) Aralıq və Final imtahanlarının hər ikisində test və klassik üsul tətbiq edilə bilər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| **1.** | | ***Qədim Şərq ədəbiyyatı tarixi***<br><br>İbtidai mədəniyyət və incəsənət.<br><br>Şumer - Akkad ədəbiyyatı. "Gilqamış (Bilqamıs) haqqında dastan (Hər şeyi bilən adamın dastanı)". | Nağıyev C. Qədim Şərq ədəbiyyatı tarixi. Asiya n., B., 2009, s.28-113<br>Qədim Şərq ədəbiyyatı, "AE",B.,1999 s.107-174<br>və ya Qədim Şərq ədəbiyyatı müntəxəbatı "Şərq-Qərb", B., 2007 s.123-203 |
| **2.** | | Qədim Misir ədəbiyyatı. Əsatirlər. Nağıllar. Nəsr. Poeziya. Orta Şərq və Anadolu ədəbiyyatı.<br><br>Qədim Çin ədəbiyyatı. Konfusi (Konq Fu Tse). | Nağıyev C. Qədim Şərq ədəbiyyatı tarixi. Asiya n., B., 2009, s.115-310<br>Qədim Şərq ədəbiyyatı "AE",B.,1999, s.27-104; 177-280 və ya . Qədim Şərq ədəbiyya. |

| | | | |
|---|---|---|---|
| | | Nəsr. Fəlsəfi nəsr. Tarixi nəsr və hekayətlər. Poeziya və zərif söz sənəti. | müntəx. "Şərq-Qərb", B., 2007 s.33-120; 203-320;<br>Skirbek Q..., Fəlsəfə tarixi, "Zəkioğlu", B., 2007s. 46-50 |
| **3.** | | Qədim Hind ədəbiyyatı. Vedalar. Mahabharata (və ya Bharata oğullarının böyük vuruşları haqqında dastan). Ramayana. Kalidasanin poemaları və dramları<br><br>Qədim İran ədəbiyyatı. Avesta.<br>Qədim yəhudi ədəbiyyatı. | Nağıyev C. Qədim Şərq ədəbiyyatı tarixi. s.312-550<br>Qədim Şərq ədəbiy. "AE", B., 1999 s. 283-554 və ya .Qədim Şərq ədəbiy. müntəxəb. "Şərq-Qərb", B., 2007) s.323-625<br>Skirbek Q., Gilye N., Fəlsəfə tarixi, "Zəkioğlu" nəşr., B., 2007; s. 37-46 |
| **4.** | | ***Antik ədəbiyyat tarixi***<br>Yunan-Roma ədəbiyyatına giriş. Yunan ədəbiyyatının arxaik dövrünəqədərki dövr.<br>Antik ədəbiyyat haqqında anlayış.<br><br>Qədim yunan ədəbiyyatının arxaik dövrü. Yazılı ədəbiyyataqədərki dövr. Əsatirlər. Miflər. Nəğmələr. | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s.4-20;<br>22-40<br><br>Antik ədəbiy. antologi., (Sultanlı Ə.) I c., B., 2006, s.7-62 |
| **5.** | | Ən qədim ədəbi abidələr. Homer eposu.<br>a."İlliada"nın qısa məzmunu. "İlliada"dan parçalar.<br><br>b. "Odissiya"nın qısa məzmunu. "Odissiya"dan parçalar. | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s. 40-80<br>Antik ədəbiyyat antologiyası (Sultanlı Ə.) I cild, Bakı, 2006, s 63-73. |
| **6.** | | Qədim Yunanıstanda didaktik epos. Hesiod. ."Zəhmətlər və günlər" poeması ilk yunan (həmçinin Avropa) didaktik eposu kimi<br><br>Antik dövr yunan ədəbiyyatının inkişafı | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s. 81-130<br><br>Antik ədəbiy. antolog. (Sultanlı Ə.) I c.,B., 2006, s.74-79 |
| **7.** | | Klassik Attik dövr yunan ədəbiyyatı (m. ö. V- IV əsrlər)<br>Dramın inkişafı.<br>Lirika.<br>Esxilin yaradıcılığı. "Zəncirlənmiş Prometey" faciəsi. Evmenidlər.<br>ARALIQ İMTAHANI | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s.131-167<br>Antik ədəbiyyat antologiyası, (Sultanlı Ə.) I cild., B., 2006, s 79-122; Qolosovker Y.E. "Mifin məntiqi" s.136-162 |
| **8.** | | Sofoklun yaradıcılığı. "Çar Edip" faciəsi<br>"Edip Kolonda", "Antiqona", "Elektra"<br><br>Aristotelin faciənin nəzəriyyəsi ilə bağlı fikirləri. | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s. 167-180<br>Antik ədəbiyyat antologiyası, (Sultanlı Ə.) I c.,B.,2006, s 123-291<br>Aristotel,Poetika,B.1974, s.54-74, 103-110 |
| **9.** | | **B**<br>**3**Evripidin yaradıcılığı. "Aleksta", "Medeya" əsərləri<br>Qədim yunan komediyası. Aristotelin komediyanın nəzəriyyəsi ilə bağlı fikirləri. Aristofanın yaradıcılığı. "Atlılar" komediyası | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s. 181-220<br>Antik ədəbiyyat antologiyası, (Sultanlı Ə.) I c,B.2006,s.292-471<br>Aristotel, Poetika, B.,1974, s.52. |
| **10.** | | m.ö. V-IV əsrlərdə nəsr, fəlsəfə.<br><br>Aristotelin "Poetika" əsəri | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s. 221-250<br>Antik ədəbiy. antolog., (Sultanlı Ə.) I c., B., 2006, s 472-487<br>Aristotel, Poetika, B.,1974.<br>Skirbek Q., Gilye N.,Fəlsəfə tarixi,"Zəkioğlu"B.,2007.s.51-144 |

| | | | |
|---|---|---|---|
| **11.** | | Ellinizm dövründə yunan ədəbiyyatı.<br>Ellinizm cəmiyyəti və mədəniyyəti.<br><br>Yeni Attik komediya. Menandr.<br>İsgəndəriyyə poeziyası. Elinizm nəsri. | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s. 252-310<br>Skirbek Q., Gilye N., Fəlsəfə tarixi, "Zəkioğlu" nəşr.,B., 2007; s. 145-167<br>Qolosovker Y.E. "Mifin məntiqi" s.19-106 |
| **12.** | | Qədim yunan ədəbiyyatı Roma imperiyası dövründə. Plutarx. Lukian. Qədim yunan məhəbbət romanı.<br>Respublika dövrü Roma ədəbiyyatı.<br>Erkən Roma ədəbiyyatı. Xalq ədəbiyyatı.<br>Roma ədəbiyyatının "qızıl əsri". (Plavt, Terensi, Siseron, Katull, Lukresi və onların yaradıcılıqları.). | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B.2011,s.311-348; 351-460<br><br>Antik ədəbiy. antolog., (Sultanlı Ə.) II c., B., 2006, s. 7-112 və ya Roma ədəbiyyatı müntəxəbatı, Az. univers. nəşr., B, 1959, s.27-272 |
| **13.** | | İmperiya dövrü Roma ədəbiyyatı.<br>"Avqust əsri".<br><br>Vergili Maron, Horasi Flakk, Ovidi Nazon, Tit Livi və onların yaradıcılıqları. | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s. 461-533<br>Antik ədəbiy. antolog., (Sultanlı Ə.) II c., B., 2006, s.113-155 və ya Roma ədəbiyyatı müntəxəbatı, Az. univers. nəşr., B, 1959, s. 275-345 |
| **14.** | | Miladın I və II əsrində ədəbiyyat.<br><br>Roma ədəbiyyatında "gümüş dövr" (Seneka, Petroni, Lukan, Fedr)<br>Lussi Anney Senekanın yaradıcılığı. Senekanın "Medeya" və "Fedra" faciəsi. | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s. 534-590<br>Antik ədəbiy. antolog., (Sultanlı Ə.) II c., B., 2006, s. 156-219 və ya Roma ədəbiyyatı müntəxəbatı, Az. univers. nəşr., B, 1959, s. 346-424 |
| **15.** | | Marsial, Yuvenall və Tassitin yaradıcılığı.<br><br>Roma ədəbiyyatının son dövrü. Apuley və onun "Qızıl eşşək" romanı<br>***Yekun*** | Tronski İ.M., Antik ədəbiyyat tarixi. B., 2011, s. 591-602<br>Antik ədəbiy. antolog., (Sultanlı Ə.) II c., B., 2006, s. 220-251 və ya Roma ədəbiyyatı müntəxəbatı, Az. univers. nəşr., B, 1959, s. 425-452 |
| | | **Final imtahanı** | |